# Əhali dövlət başçısının ordu quruculuğu sahəsində fəaliyyətini yüksək qiymətləndirir

❒ ***Azərbaycan Prezidenti İlham Əliyev ölkə ictimaiyyəti arasında kifayət qədər nüfuz və rəğbət qazanmış liderlərdəndir. Vaxtaşırı Azərbaycanın istər beynəlxalq reytinq təşkilatlarının hesabatlarında, istərsə də ölkə daxilində aparılan müxtəlif qiymətləndirmələrdə mühüm yerlər tutması bunu dəfələrlə təsdiq edib. Təbii ki, ölkəmizin, eləcə də dövlətimizin liderinin dünyada nüfuzunun artması ilə bağlı xəbərlər ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.***



Son vaxtlar Sosial Tədqiqatlar Mərkəzi (STM) dövri olaraq "İnam indeksi" nəşrinin xüsusi buraxılışında ölkə başçısının fəaliyyətinin ictimai qiymətləndirilməsini həyata keçirir və Prezident İlham Əliyevin fəaliyyəti, həyata keçirdiyi genişmiqyaslı sosi-al-iqtisadi və xarici siyasət kursunun milli həyatımızdakı yeri, eləcə də qarşıya qoyulan hədəflərlə bağlı elmi təhlillər aparır. Nəşrin üçüncü buraxılışı Azərbaycan Prezidentinin bu ilin ikinci rübündəki fəaliyyətinə həsr edilib. Elmi təhlillər nəticəsində gəlinən nəticə bundan ibarətdir ki, Prezident İlham Əliyev özünün ictimai-siyasi, sosial-iqtisadi sahələrdə geniş və çoxşaxəli fəaliyyəti ilə ölkə ictimaiyyətinin böyük etimadını qazanıb. Dövlət başçısının ordu quruculuğu sahəsində fəaliyyəti xüsusilə vurğulanır. "İnam indeksi"ndə bildirilir ki, Prezidentin fəaliyyətinin prioritet istiqamətlərindən birini ordu quruculuğu təşkil edir. Silahlı Qüvvələrə xüsusi diqqətin ayrılmasını, şübhəsiz ki, hər şeydən öncə, ölkəmizin müharibə şəraitində olması şərtləndirir.

Bu istiqamətdə aparılmış sorğunun nəticələri aydın şəkildə göstərir ki, əhali ordu quruculuğu istiqamətində Prezidentin fəaliyyətini kifayət qədər yüksək qiymətləndirir. Rəyi soruşulanların 70,7 faizi, yəni, mütləq çoxluğu dövlət başçısının ordu quruculuğu istiqamətindəki fəaliyyətinin çox səmərəli olduğunu düşünür. 24,6 faiz respondent isə bu istiqamətdə Prezidentin fəaliyyətini əsasən səmərəli hesab edir.

Ordu quruculuğu istiqamətində səmərəli fəaliyyət ölkə Prezidentinə olan inam və etimadın artmasını şərtləndirən əsas amil rolunda çıxış edir. Belə ki, Prezidentə olan inam və etimadının artdığını bildirən 24,6 faiz respondentin 82 faizi ordu quruculuğu istiqamətində onun fəaliyyətini çox müsbət qiymətləndirir.

Qeyd etməliyəm ki, bu nəticələrin doğruluğunu iyulun 12-16-da baş vermiş Tovuz döyüşləri də sübut etdi. Həmin günlərdə Azərbaycan Ordusu öz gücünü, peşəkarlığını, düşmənə sarsıdıcı zərbələr endirməyə, torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu bir daha göstərdi. Tovuz istiqamətində təxribata əl ataraq yeni ərazilərimizi işğal etmək niyyəti ilə hücuma keçmiş Ermənistan ordusu ön cəbhədəki hərbi qüvvələrimizin inadlı müqaviməti və sərt zərbələri ilə qarşılaşdı. Bununla da azğın və harın düşmən 2016-cı ilin aprelində və 2018-ci ilin mayında unutduğu dərsləri bir daha yadına saldı. Baş vermiş hücum faktı ilə əlaqədar Təhlükəsizlik Şurasının iclasını keçirən Prezident İlham Əliyev də Azərbaycan əsgərinin qətiyyətinə yüksək qiymət verərək bildirdi ki, Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilmədilər.

***Əbülfət QASIMOV,***
***Qarabağ müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenant***

Xalq qəzeti 2020.- 4 sentyabr.- S.3.